*AMEA Filologiya və sənətşünaslıq, 2026, № 1* *ISSN 2663-4368*
*Səhifə: 65-72* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4368.2026.1.65*

# Ədəbiyyatda azərbaycançılıq məfkurəsinin müstəqillik savaşında rolu və özünütəsdiqi

**Səbuhi Qəhrəmanov**
Filologiya üzrə fəlsəfə doktoru
Azərbaycan Dillər Universiteti
E-mail: gahramanovsabuhi@gmail.com
ORCID iD: https://orcid.org/0009-0008-9817-0409

***Xülasə.*** Məqalədə ötən əsrin sonlarında milli istiqlalın, ictimai-siyasi və dövlət müstəqilliyinin əldə olunmasında Azərbaycan ədəbiyyatının rolundan bəhs edilir. Azərbaycan ədəbiyyatı milli şüurun və azərbaycançılıq məfkurəsinin formalaşması və inkişafında tarixən böyük rol oynamış, uzun illərin sovet işğalından sonra milli məfkurənin qələbəsi və müstəqilliyin qazanılmasında bu amil həlledici olmuşdur. İctimai-siyasi proseslərin ədəbi prosesə təsirini təhlil etdikdə son sovet dönəmi Azərbaycan ədəbiyyatının milli özünüdərk, istiqlal ideyası və azərbaycançılıq düşüncəsinin ideoloji platformasına çevrildiyini görürük. Sabir Rüstəmxanlı, Xəlil Rza Ulutürk, Bəxtiyar Vahabzadə, Məmməd Araz və bir çox sənətkarın yaradıcılığı milli istiqlal ideyasının mükəmməl bədii təcəssümüdür. Müstəqillik ərəfəsində repressiya, mühacirət irsinin yenidən dövriyyəyə qayıtmasının milli şüurun formalaşmasına böyük təsiri var idi. Azərbaycan ədəbiyyatı ictimai-siyasi və dövlət müstəqilliyinin qazanılmasında, milli yaddaşın bərpasında və azərbaycançılıq məfkurəsinin ictimai şüurda möhkəmlənməsində mühüm tarixi missiya yerinə yetirmişdir.
***Açar sözlər:*** *Azərbaycançılıq, milli istiqlal ideyası, müstəqillik dövrü ədəbiyyatı, Qarabağ hadisələri, milli özünüdərk*

**Məqalə tarixçəsi:** göndərilib – 01.04.2026; qəbul edilib – 19.05.2026

# The Role and Self-Affirmation of the Ideology of Azerbaijanism in the Struggle for Independence in Literature

**Sabuhi Gahramanov**

***Abstract.*** The article examines the role of Azerbaijani literature in the attainment of national liberation, socio-political and state independence at the end of the last century. Azerbaijani literature has historically played a significant role in the formation and development of national consciousness and the ideology of Azerbaijanism, and this factor became decisive in the triumph of the national ethos and the attainment of independence after decades of Soviet occupation. An analysis of the impact of socio-political processes on the literary process demonstrates that Azerbaijani literature of the late Soviet period became an ideological platform for national self-awareness, the idea of independence, and the ideology of Azerbaijanism. The works of Sabir Rustamkhanli, Khalil Rza Uluturk, Bakhtiyar Vahabzadeh, Mammad Araz, and other literary figures are a perfect artistic embodiment of the idea of national independence. On the eve of independence, the reintroduction of the legacy of repression and emigration into intellectual circulation had a significant impact on the formation of national consciousness. Azerbaijani literature has fulfilled an important historical mission in the attainment of socio-political and state independence, in the restoration of national memory, and in the consolidation of the ideology of Azerbaijanism in the public consciousness.
***Keywords:*** *Azerbaijanism, the idea of national independence, literature of the independence period, the Karabakh events, national self-awareness*

**Article history:** received – 01.04.2026; accepted – 19.05.2026

## Giriş / *Introduction*

Milli istiqlal ideyası son yüzillər ərzində Azərbaycan ədəbiyyatının başlıca ideya xətti, leytmotivlərindən birini təşkil edir. XIX əsrin əvvəllərində Azərbaycanın Rusiya tərəfindən işğalı xalqın etiraz və narazılığı ilə qarşılanmış və bu əhvali-ruhiyyə Azərbaycan ədəbiyyatında əksini tapmışdır. İstibdadla barışmamaq, zülmə qarşı çıxmaq, hər kəsin azad, firavan, xoşbəxt yaşayacağı cəmiyyət uğrunda mübarizə motivləri öndə Mirzə Fətəli Axundzadə olmaqla maarifçilik ədəbiyyatında yer tapmış, XX əsrin əvvəllərində romantizm və realizm ədəbiyyatında milli azadlıq və istiqlal ideyasına, milliyyətçilik məfkurəsinə yüksəlmişdir. 1918-1920-ci illərdə mövcud olmuş Şərqdə ilk demokratrik respublika örnəyi – Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasında bu ədəbiyyatın formalaşdırdığı azərbaycançılıq şüuru və ideologiyasının əvəzsiz xidmətləri olmuşdur. 1920-ci ilin aprel işğalı müstəqilliyə son qoysa da, azərbaycançılıq şüurunu məhv edə bilmədi; yetmiş il sovet dönəmi ərzində millilik amili və milliyyətçilik platformasının qorunub-saxlanmasında ədəbiyyatın başlıca rolu və xidməti danılmazdır.

Müstəqil Azərbaycan idealı Cümhuriyyət dövründən sonra bir daha sovet dövlətinin qürubu zamanı, 1980-ci illərin sonlarında ictimai-siyasi aktuallıq kəsb etdi. Bu idealın gerçəkləşdirilməsində ədəbiyyat fəal olmuş, mübariz mövqe nümayiş etdirmişdir. Bilavasitə və dolayısı üsullarla 1960-1980-ci illər ərzində ədəbiyyatda əksini tapan, təcəssüm olunan istiqlal ideyaları dövrün ictimai-siyasi hadisələrinin təsirilə gerçəkləşməyə başladı. Ədəbiyyatın proseslərə cəlb olunması sürətləndi, müstəqil Azərbaycan uğrunda savaş ideya mücadiləsindən real mübarizə fazasına keçdi.

## Əsas hissə / *Main part*

### Sovet İttifaqının süqutu dövründə milli hərəkat və ədəbi proses

Ötən əsrin 80-ci illərinin ikinci yarısında sovet rejiminin yuxarıdan islahatla növbəti dəfə ömrünü uzatmaq siyasətinə əl atması bütünlükdə ölkənin iflası ilə nəticələndi. Sovet rəhbərliyinin yenidənqurma adını verdiyi bu siyasət demokratiya, aşkarlıq şüarları altında əslində sistemin astarını üzə çıxarır, o cümlədən imperialist mahiyyətini açırdı. Xüsusən sovet ittifaqına daxil olan respublikalarda yenidənqurma, demokratiya, aşkarlıq çağırışları milli məsələyə gətirib çıxarır, nəticədə milli hərəkatlara səbəb olurdu. Aşkarlıq hər şeydən əvvəl velikorus şovinizminin üzə çıxmasına səbəb oldu. Pribaltikada, Qazaxıstanda, Gürcüstanda, Azərbaycanda yerli xalqlara qarşı hərbi gücün tətbiqi respublikaların İttifaq dövlətində mövqeyinə böyük zərbə vurdu, çoxmillətli Sovet ölkəsinin dayaqlarını sarsıtdı. Azərbaycanda 1990-cı ilin 20 yanvarında sovet ordusunun dinc nümayişə çıxmış əliyalın insanları ağır tanklar altında əzərək, xalqın haqq səsini boğmağa çalışması bu siyasətin irticaçı mahiyyətini tamamilə üzə çıxardı.

Azərbaycan xalqını meydanlara çıxaran Qarabağ münaqişəsi, Ermənistanın Azərbaycana qarşı torpaq iddiası, 1987-ci ildə Dağlıq Qarabağ torpaqlarının alınıb özünə birləşdirmək cəhdi idi. Moskvanın bu münaqişəni yaratması və qızışdırması, birtərəfli şəkildə Ermənistanı və Qarabağ separatçılarını dəstəkləməsi xalqın qəzəbini pik həddinə çatdırmışdı. 1987-1988-ci illərdə Qərbi Azərbaycanda yaşayan azərbaycanlıların təzyiq və zor gücünə, total şəkildə deportasiyası milli münaqişəni daha da alovlandırmış, azərbaycanlıların erməni separatçıları tərəfindən Qarabağdan çıxarılması müharibənin başlanmasına təkan vermişdi. Hadisələrin düşünülmüş ssenari əsasında baş verməsini Aqil Abbas 1990-cı illərdə yazmağa başladığı, daha sonralar çap etdirdiyi "Dolu" romanında belə ifşa edirdi: *"Bu dəhşətli Kinonun ssenarisini dünyanın Böyük Dövlətlərinin Böyük Saraylarında yazmışdılar. Çəkilişini də Tarkovskinin də, Tofiq Tağızadənin də həsəd aparacaqları rejissorlara tapşırmışdılar. Və həmin rejissorları da Böyük Dövlətlərin Böyük Saraylarında oturub çəkməkdə olduqları kinonun gündəlik kadrlarına ləzzətlə tamaşa edirdilər. Bu Kinonun iştirakçılarının isə nə ssenaridən, nə də re-*

*jissor işindən xəbərləri yox idi...*" [Abbas: 2008, s. 34-35].

Mövlud Süleymanlının "Erməni adındakı hərflər" (2007) romanında isə Ermənistanda baş verən hadisələr, azərbaycanlıların uzun illər ərzində sıxışdırılması, millətçi təzyiqə məruz qalması, nəhayət 1987-1988-ci illərdə zorakı üsullarla vətənlərindən deportasiya olunması canlı bədii lövhələrdə əks olunmuş, milli hərəkata gətirib çıxaran süjetlər təqdim olunmuşdur. Uzun illər qadağa altında olan bu mövzu sonralar 1948-1950, 1960-1970, 1987-1988-ci illərdə azərbaycanlıların deportasiyası, köçürülməsi, sürgünü ilə bağlı ədəbiyyatda silsilə əsərlərin – Fərman Kərimzadənin "Vedinin yanı dağlar" (1988) publisist oçerki, Məmməd Orucun "Köçürülmə" (1990) romanı, Miraslan Bəkirlinin "Yiyəsizlər" (1993) povesti, Azər Abdullanın "Qəmərlidən keçən qatar" (1998) hekayəsi və "Sarı tağ" (2011) romanı, Hidayətin "Burdan min atlı keçdi" memuarı (2016), Vahid Əziz, Musa Urud, Əhməd Oğuz və b.-nın şeir və poetik silsilələrinin yaranması ilə nəticələndi.

Qarabağ uğrunda ictimai-siyasi hərəkatın başlanması milli birliyin yaranmasını, bir milli məfkurə ətrafında birləşməyi zəruri edirdi. 1988-ci ildə Sabir Rüstəmxanlının vətən tarixinin sovet dövründəki bütün qadağalardan azad, milli-mənəvi keçmişi, dəyərləri, türk soykökünü əks etdirən sənədli-publisist "Ömür kitabı" işıq üzü gördü və böyük tirajla (1988-ci ildə 80 min, 1989-cu ildə 100 min nüsxə) çapı əsl Azərbaycan həqiqətlərinin millətə çatdırılmasının nə qədər vacib olduğunu təsdiqlədi.

*""Ömür kitabı" – 1980-ci illər üçün gerçək olduğu qədər də İdeal Azərbaycan kitabıdır. Rejimin və ümumən özünə-yabançı rejimlərin məngənəsində sıxılıb-boğulub, parça-parça olsa da, duruş gətirən, əbədi-yaşarı Azərbaycan ruhu, mənası, qayəsinin kitabıdır. Milli türk mentallığından-mənəviyyatından, qədimliyindən-tarixindən, mədəniyyətindən-yazısından, ədəbiyyatı və sənətindən yaranan xalq ruhu, toplum həqiqətinin mükəmməl ifadəsidir"* [Xalq şairi Sabir Rüstəmxanlı: həyatı və yaradıcılığı: 2021, s. 257]. Göründüyü kimi, "milli bir mədəniyyətin formalaşdırılması və qorunması düşüncəsi türkçülük ideyasının formalaşdırdığı milli ədəbiyyat cərəyanının əsasını təşkil edir" [Altıntaş: 2021, s. 845]. Kitabda şair-publisist yalnız millət və vətən tarixinin ibtidai dövrlərdən bugünəcən açılmamış səhifələrini sənədli olaraq araşdırmaqla qalmır, publisist bir ataşla Qarabağ torpağının tarix boyu əsl sahiblərinin kim olduğunu rus və erməni millətçilərinin üzünə çırpırdı.

1988-1990-cı illərin Azadlıq meydanında fasiləsiz davam edən kütləvi mitinq və nümayişlər "meydan hərəkatı" adını aldı. 1988-ci ilin 17 noyabr – 5 dekabr tarixlərində xalq etirazını ifadə edən mitinqlərdən birində meydanda üçrəngli bayrağın görünməsi hadisələrin sadəcə Qarabağa dəstək aksiyası deyil, simvolik mahiyyətini üzə çıxardı. Meydan hərəkatının liderlərindən biri olan Sabir Rüstəmxanlı sonralar "Xətai yurdu" (2003) romanında bunu belə xatırladır: *"Meydanda da Azərbaycan SSR-in qırmızı-göy bayrağıyla yanaşı, çeşidli bayraqlar dalğalanırdı. Qara, yaşıl, ərəb hərfləri ilə yazılı. Bizim bir bayrağımız var: Ay ulduzlu, üçrəngli... mavi, qırmızı, yaşıl. Bu 1918-ci ildə qurulmuş və şərqdə birinci demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı, milli bayrağımızdır. Bu gün də meydanda həmin bayraq dalğalanacaq, tanımadığımız bayraqlar yığışdırılsın. Toplaşanlara bu fikrimi də çatdırdım"* [Rüstəmxanlı: 2003, s. 274-275].

Meydan hərəkatı tez bir zamanda ədəbiyyatda əks-səda verərək bir sıra əsərlərin – X.Rza Ulutürk, S.Rüstəmxanlı, C.Novruz, Zəlimxan Yaqub və b. şairlərin silsilə şeirlərinin, Əli Əmirlinin "Meydan" (1992), Arif Abdullazadənin "Qanlı yaddaş" (1992), Sadıq Elcanlının "Qanlı quzğun meydanı" (1994), Sabir Əhmədlinin "Kütlə" (1995) romanlarının yaranmasına rəvac verdi.

**Azərbaycançılıq məfkurəsinin ədəbi və ideoloji qaynaqları**

1980-ci illərin sonlarından azərbaycançılığın bir milli məfkurə kimi özünütəsdiqi, xalqı ətrafında təmərküzləşdirməsi və milli hərəkata çevrilməsinin bir sıra ideya qaynaqları və səbəbləri vardır. Bunlardan birincisi, milli ideoloji irsin, 1918-1920-ci illərin dövlətçilik və istiqlal dəyərlərinin dönüşü və bərpasından ibarətdir. Bu prosesdə ədəbiyyatın rolu və iştirakı danılmazdır. "Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı" monoqrafiyasında göstərildiyi kimi: *"Yetmiş il ərzində qadağan olunmuş ədəbiyyat*

*nümunələrinin, o cümlədən mühacirət irsinin nəşri yeni ədəbi prosesə təkan verdi" [Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı: I, 2016, s. 68].* Ötən əsrin əvvəllərində yaşamış Azərbaycan ziyalılarının və mühacirət irsi nümayəndələrinin əsərlərinin 1990-cı illərdə yenidən ədəbi dövriyyəyə qayıtması milli yaddaşın bərpasına, azərbaycançılıq məfkurəsinin möhkəmlənməsinə təkan verdi. O cümlədən sovet dövründə qadağan olunmuş, 1920-1930-cu illərdə repressiyaya məruz qalmış bir çox şair və yazıçının – Cəlil Məmmədquluzadə, Yusif Vəzir Çəmənzəminli, Hüseyn Cavid, Əhməd Cavad, Cəfər Cabbarlı, Seyid Hüsey və Mikayıl Müşfiqin çap olunmamış əsərlərinin yenidən üzə çıxması azərbaycançılığın bilavasitə təcəssümü və təsdiqinin sübutu oldu.

Əhməd Cavadın, Cəfər Cabbarlının Azərbaycan bayrağına, Məhəmməd Hadinin Azərbaycan ordusuna həsr etdiyi şeirlər yetmiş illik qadağalardan sonra işıq üzü gördü.

*"Türküstan yelləri öpüb alnını,*
*Söyləyir dərdini sana, bayrağım!*
*Üç rəngin əksini Quzgun dənizdən*
*Ərməğan yollasın yara, bayrağım!"*
[Cavad: 1991, s. 106]

Bir çox repressiya qurbanları sırasında Əhməd Cavad da 1950-ci illərdə sanki bəraət alıb, etiraf olunsa da, əsərlərinin bir çoxu, xüsusən Azərbaycan Cümhuriyyətini tərənnüm edən şeirləri müasir oxuculara gizli qalırdı. Şairin külliyyatının ikicildliyi (Bakı, Azərnəşr, 1992) ədəbiyyatda azərbaycançılıq idealının parlaq təzahürü və təbliğinə rəvac verdi.

Əlibəy Hüseynzadənin irsinin tədqiqi, məqalələri və kitablarının işıq üzü görməsi bütün türklərin ümumi vətəni olan Turan idealını yenidən aktuallaşdırdı. Böyük mütəfəkkirin Azərbaycan bayrağının rənglərinin simvolik mənasını ifadə edən "Türkləşməli, islamlaşmalı, müasirləşməli!" çağırışı bilavasitə yerini aldı, geniş kütlənin şüuruna yeridi.

Məhəmməd Əmin Rəsulzadə "Azərbaycan Cümhuriyyəti" (Bakı, Elm, 1990) və "Əsrimizin Səyavuşu" (Bakı, Gənclik, 1991) əsərlərində Azərbaycan Cümhuriyyətinin yaranması, fəaliyyəti və iflası tarixini əks etdirməklə yanaşı, müstəqil dövlətin ideologiyasını, azərbaycançılıq məfkurəsinin əsaslarını, başlıca prinsiplərini də şərh edirdi. Azərbaycan xalqının mənşəyini doğru izah edən ideoloq bir millət kimi varlığının parametrlərini də dürüst ifadə edirdi: *"Azərbaycanlılar milliyyət etibarilə türk, din etibarilə islam, mədəniyyəti-əsasiyyə etibarilə şərqlidirlər" [Rəsulzadə: 1990, s.12].* Bu başlanğıcların hər biri müxtəlif olmaqla, birgəlikdə Azərbaycan millətinin tarixi xarakterini müəyyən edirdi. İctimai-siyasi səhnədə Azərbaycançılıq məfkurəsinin banilərindən biri olan, *"bu şüarı ilk dəfə ortaya atan" və "onu yalnız əcnəbilərə deyil, bir qisim azərbaycanlılara qarşı dəxi müdafiə edən" [Rəsulzadə: 1990, s. 53].* Məhəmməd Əminin ideyaları tarixən olduğu kimi, 1990-cı illərdə müstəqilliyin qazanılmasında da öz tarixi rolunu oynamışdır.

**Milli istiqlal ideyasının bədii təcəssümü və dövlətçilik düşüncəsi**

Azərbaycançılıq məfkurəsinin şüurlarda geniş yer almasının ikinci bir amili 1960-1980-ci illər ərzində ədəbiyyatın özünün yetirdiyi milli ideyalar və vətənsevərlik duyğuları idi. Sovet dövlətinin qürubunda cərəyan edən proseslər bu ideyaları daha da gücləndirdi, yazıçı və şairlərin hadisələrə reaksiyasını, xalqın etiraz səsinə qələmi ilə səs verməsini şərtləndirdi. Qarabağ hadisələri zəminində baş qaldırmış milli hərəkatda yazıçılar həm əsərləri ilə, həm də bilavasitə fəaliyyətlə iştirak edirdilər.

Bütün yaradıcılığı azərbaycançılıq həqiqətlərinin inikasından ibarət olan Bəxtiyar Vahabzadə, İsmayıl Şıxlı, Mirzə İbrahimov, Anar xalq deputatı və millət vəkili kürsüsündən Moskvada və Bakıda Qarabağ münaqişəsinə Kremlin ədalətsiz münasibətini ifşa edir, Azərbaycanın mövqeyini müdafiə edirdilər. Yusif Səmədoğlu, Fərman Kərimzadə, Qasım Qasımzadə, Məmməd Araz, Yaşar Qarayev, Ziya Bünyadov, Aydın Məmmədov, Dilarə Əliyeva, Vaqif Səmədoğlu, Hidayət, Əzizə Cəfərzadə, Aqil Abbas, Kamal Abdulla, Vilayət Quliyev və b. yazıçı, şair və alimlərin publisist yazılarında 1980-ci illərin sonlarından erməni təxribatları ifşa olunur, Qarabağ münaqişəsinin əsassızlığı sübuta yetirilir, hadisələri kürükləyib qızışdıran Moskva siyasətçilərinə kəskin cavablar verilirdi.

Xəlil Rza Ulutürk və Sabir Rüstəmxanlı meydan hərəkatının liderləri kimi təsirli çıxışları, publisist yazıları və şeirləri ilə xalqı milli

ideya və Azərbaycanın xilası naminə səfərbər edirdilər. Xəlil Rza Ulutürk "Silahlan" (1988) şeirində imperiyanın hiyləgər siyasətinə qarşı xalqı bütün varlığı ilə etiraz etməyə çağırır:

*"Bu sərt, ağır günlərdə*
*Mən – Ali Baş Komandan*
*olsam, olmasam belə*
*Azərbaycan adından*
*Əmr edirəm: – Silahlan!*
*Silahsız dayanmağa bir qırpım da haqqın yox.*
*Gözlərin – qoşalülə... Kirpiklərin güllə, ox..."*
[Ulutürk: 2005, s. 138].

Bəxtiyar Vahabzadə "Əgər qorunmazsa istiqlalımız" (1992) şeirində imperiyanın çöküşünü, müstəqillik savaşına qalxmağın vədəsinin yetişdiyini xəbər verirdi:

*"Üç yüz il dünyaya qan udduran taxt*
*Çürüyüb, sahibi inana bilmir.*
*Ondan üz döndərib bu dövran, bu vaxt*
*Bu böyük gerçəyi o qana bilmir..."*
[Vahabzadə: 2004, s. 128].

Məmməd Araz "Ayağa dur, Azərbaycan!" (1992) şeirində milli varlıq uğrunda xalqı mübarizəyə çağırır, onu vətənpərvərlik ruhu ilə səfərbər edirdi:

*"Bu, Şəhriyar harayıdı,*
*Bu, Bəxtiyar harayıdı!*
*Hanı sənin tufan yıxan,*
*Gurşad boğan yurda oğul oğulların!*
*Qara Çoban, Dəli Domrul oğulların..."*
[Araz: 2004, s. 132].

Qarabağ hadisələrinin milli hərəkata gətirib-çıxarmasında həlledici faktorlardan biri də 1990-cı ilin qara yanvar faciəsidir. Sovet ordusunun Azərbaycan xalqının haqq səsini boğmaq cəhdi görünməmiş miqyasda ümummilli etirazla qarşılandı. Xalqın bütün təbəqələri, sinifləri, zümrələri bu ədalətsizliyə və vandallığa qarşı ayağa qalxdı. Məlum oldu ki, Sovet imperiyasının rəsmi təbliğat mexanizminin "sovet adamı" prizmasından gördüyü Azərbaycan insanı və xalqı daxilən milli ruha, mənəvi gücə malik yenilməz bir qüvvə idi. Qabil hadisələrin isti iziylə qələmə aldığı "Mərsiyə"sində düşmənə nifrin və qəzəblə birgə bu gerçək mənzərəni də təsvir edir:

*"Kim görüb böylə mərasim olar milyonlar ilə,*
*Bakı insan axınıyla dola milyonlar ilə,*
*Salına şanlı şəhidlər yola milyonlar ilə,*
*Analarla bacılar saç yola milyonlar ilə.*
*Gecəni ataş ilə qırmızı dan eylədilər,*
*Xalqımı – millətimi gülləbaran eylədilər"*
[Qabil: 2004, s. 110].

20 yanvar hadisələri ədəbiyyatda böyük əks-səda doğurdu. *"Qəfil hadisələr, misli olmayan faciə və fəlakət, buna duruş gətirmiş möhtəşəm Xalq obrazı qarşısında sanki ədəbiyyat aciz idi, yaşananları qələmə almağa bədii sözün qüdrəti çatmırdı" [Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı: I, 2016, s. 86]* Buna cavab olaraq, hadisələri yazıb bu mövzuda qələmini işlətməyən yazıçı, şair, dramaturq, söz adamı olmadı. Onlarla şeir, hekayə, publisist yazı, sənədli kitab ümummilli xalq mövqeyini ifadə etməklə azərbaycançılığın əyani təsdiqi oldu.

Qarabağ münaqişəsinin erməni işğalçılarına qarşı müharibəyə çevrilməsi millətin qəhrəmanlıq ruhunu oyatdığı kimi, ədəbiyyatda da yeni bir səhifə açdı. Yalnız 1991-1993-cü illər I Qarabağ müharibəsi dövründə deyil, Azərbaycan xalqının 2020-ci il II Qarabağ savaşında qələbəsinə qədər otuz il ərzində bu mövzu ədəbiyyatın əsas mövzusu oldu. Bütünlükdə patriotik məzmunlu, müharibənin acı nəticələrini, xalqın sarsılmazlığını və son qələbəyə inamını azərbaycançılıq mövqeyindən əks etdirən bütöv bir ədəbiyyat yarandı.

Qarabağ hadisələri yalnız Azərbaycan xalqına qarşı düşünülmüş şəkildə həyata keçirilən qəfil hücum kampaniyasını üzə çıxarmaqla qalmadı, ümumən xalqın tarixi yaddaşını, üç yüz illik müstəmləkə dövrünün müqavimət və mübarizə enerjisini oyatdı. Yüz əlli illik rus şovinizm siyasəti və erməni düşmənçiliyini ifşa edən M.S.Ordubadinin "Qanlı illər" (Bakı, Qarabağa Xalq yardımı komitəsi, 1991) və Mir Möhsün Nəvvabın "1905-1906-cı illərdə erməni-müsəlman davası" (Bakı, Azərbaycan, 1993) əsərləri yazıldığı dövrdən bir əsr sonra kitab şəklində çap olundu. Qarabağ hadisələri fonunda XIX əsrdə qələmə alınmış "Qarabağnamələr" (Bakı, Yazıçı, 1989) işıq üzü gördü.

Ədəbiyyatda bütöv Azərbaycan mövzusu yeni mərhələyə qovuşdu. Sərhədləri keçib Cənubi Azərbaycanla birbaşa əlaqələr qurmaq imkanı şairlərin yaradıcılıq ilhamında təcəssümünü tapdı. Məmməd Araz, Bəxtiyar Vahabzadə, Xəlil Rza Ulutürk, Sabir Rüstəmxanlı və b. şairlərin "cənub poeziyası" yeni vüsət kəsb etdi. Cənubdan olan şairlər Balaş Azəroğlu, Əli Tudə, Söhrab Tahir, Mədinə Gülgün və Həkimə Billurinin yaradıcılığında vətənin birliyi motivləri ilə yanaşı, İstiqlal mövzusu da ümdə yer tutdu.

Qarşılıqlı olaraq Cənubda yaşayan azərbaycanlı şairlərin yaradıcılığı daha geniş təbliğat imkanı qazandı. Məhəmmədhüseyn Şəhriyarın ana dilində şeir toplusu "Divani-türki" (1993) adı ilə ilk dəfə olaraq çox böyük həcmdə işıq üzü gördü. Mühacir-şair Həmid Nitqinin "Hər rəngdən. Dünəndən bugünə" (1996) kitabı modern Azərbaycan şeirinin üfüqlərini genişləndirdi. Cənub ədəbiyyatının ardıcıl təbliğatçısı, Təbrizdə nəşr olunan "Varlıq" jurnalının baş redaktoru Cavad Heyət Bakıya gəldi və burada "Azərbaycan şifahi xalq ədəbiyyatı" (1990) və "Azərbaycan ədəbiyyatı tarixi" (1997) monoqrafiyalarını çap etdirdi.

Tədqiqatçılar yenidənqurma, demokratiya və aşkarlıq şüarlarının sovet ideologiyasına rəğmən daha bir real bəhrəsini azərbaycançılıq məfkurəsinin tarixi kontekstinə, türkçülüyün dirçəldilməsinə qayıtmasında görürlər. Akademik Nizami Cəfərovun fikrincə, *"ədəbiyyatın tarixi xalqa öz etnokulturoloji kökləri üzərində möhkəm dayanmaqda mənəvi-ideoloji kömək göstərməlidir"* [Cəfərov: 2002, s. 34]. Türk xalqları ədəbiyyatından nümunələr, o cümlədən XX əsrin tanınmış qazax şairi Oljas Süleymenovun, dünya şöhrətli yazıçı Çingiz Aytmatovun əsərləri, ortaçağ abidəsi Cahizin "Türklərin fəzilətləri", XX əsr türk ideoloqu Ziya Göyalpın "Türkçülüyün əsasları" (Bakı, Maarif, 1991) Azərbaycan dilində nəşr olunmaqla tarixi kontekstin yenidən bərpasına rəvac verdi. Ümumiyyətlə, *"türkçü ziyalılar milliləşmə prosesini sürətləndirmək üçün dil, millət və ədəbiyyat arasındakı əlaqədən istifadə edirlər" [Öge: 2021, s. 319]*. Eyni zamanda *"Müasir Azərbaycan poeziyasında bu mədəni ideoloji xətt Zəlimxan Yaqub, Vaqif Bayatlı Odər, Əhməd Qəşəmoğlu, Rüstəm Behrudi, Xanəmir, Nizami Muradoğlu və b. şeirlərində ardıcıllıq nümayiş etdirir. Türk mifologiyasından gəlmə obraz və motivlər, ucsuz-bucaqsız türk coğrafiyası, tarixi şəxsiyyətlər, müsbət türk imici və türk birliyi ideyası bu poeziyanın əsas mayasını təşkil edir"* [Məmməd: 2020, s. 83].

Beləliklə, 1980-ci illərin sonu 1990-cı illərin əvvəllərində ədəbiyyatımız düşmənlə üz-üzə qalan Azərbaycan xalqının sovet sosialist libasını büsbütün kənara atıb, azərbaycançılıq məfkurəsinə sığındığını və siyasi müstəqillik savaşı açdığını əyani şəkildə, bütün genişliyi ilə təqdim edir, göstərir.

Ulu öndər Heydər Əliyev 1990-cı ildə Naxçıvanda ilk dəfə olaraq üçrəngli Azərbaycan bayrağını rəsmən respublikanın dövlət bayrağı elan etmişdir. Bundan sonra 18 oktyabr 1991-ci il tarixində Azərbaycan parlamenti Dövlət müstəqilliyinin bərpası aktını qəbul edərək üçrəngli bayrağı, gerb və himni dövlət atributları kimi təsdiq etməklə, Azərbaycançılıq ideologiyasının bərqərar olmasını təmin etdi. 1993-cü ilin iyun ayında xilaskar missiyası ilə Bakıya qayıdan və ölkəni hərc-mərclikdən, vətəndaş müharibəsindən qurtaran Heydər Əliyev 15 iyun tarixli parlament iclasında Azərbaycançılıq proqramını bəyan etmişdir. Ulu Öndər: *"Azərbaycan Respublikasının dövlət müstəqilliyi 1918-ci ildə yaranmış ilk Azərbaycan Demokratik Respublikasının ənənələri əsasında müasir tələblərlə, dünyada gedən proseslərlə bağlı olaraq təmin olunmalıdır..."* [Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı: I, 2016, s. 59] deyərək, Azərbaycançılıq məfkurəsinin ideya qaynaqlarını və perspektivlərini açıqladı. Dövlətçilik ənənələrinə söykənməklə, çağdaş azərbaycançılığa önəm verdi. Bu, 1960-1980-ci illərdə, bilavasitə ümummilli liderin birinci hakimiyyəti dövründə toplanmış real təcrübə idi.

Təsadüfi deyil ki, Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin quruculuğu proqramını ilk olaraq 1993-cü ilin sentyabrında ziyalılarla görüşündə açıqlamışdır. Anar "Unudulmaz görüşlər" memuar əsərində yazır: *"Sentyabrın 20-də Prezidentin vəzifəsini icra edən Heydər Əliyev hakimiyyətə qayıdandan sonra ilk dəfə ziyalılarla geniş görüş keçirdi. Mən məruzə etdim. Məruzəmdə Heydər Əliyevə aid bu fikirlər səsləndi: Azərbaycan bu gün tarixinin, doğrudan da, ən ağır günlərini yaşayır və çoxları kimi*

*mənim də bu ağır günlərdən qurtulmaq ümidlərimiz Heydər Əliyevin rəhbərliyə gəlməsi ilə bağlıdır..."* [Anar: 2009, s. 89].

Heydər Əliyev müstəqil Azərbaycan Respublikasına rəhbərlik etdiyi on il ərzində Azərbaycançılıq proqramını həyata keçirərkən ədəbiyyatın gücünə, onun təbliğ etdiyi milli dəyərlərə qiymət verərək, cəmiyyət və mədəniyyət quruculuğunda bundan istifadə etmişdir. Yazıçıların 1997-ci ilin oktyabrında keçirilən X qurultayında Ulu öndər çıxışında milli şüurun yetişməsində ədəbiyyatın rolunu xüsusi qeyd etdi: *"Bilirsiniz, bizim ədəbiyyatımızın xalqımıza etdiyi ən böyük xidmət ondan ibarətdir ki, şairlərimiz, yazıçılarımız öz əsərləri ilə Azərbaycanda, xalqımızda, millətimizdə daim milli hissiyyatları oyatmağa çalışmışlar. Milli özünüdərk, milli oyanış, dirçəliş prosesi xalqımıza birinci növbədə ədəbiyyatdan keçir"* [Əliyev: 2023, s.300].

Heydər Əliyevin respublikanın çətin günlərində 1996-cı ildə Məhəmməd Füzulinin 500 illik yubileyini, 1997-2001-ci illərdə "Kitabi-Dədə Qorqud"un 1300 illiyini böyük milli hadisə kimi, ümumtürk dövlətləri və UNESCO miqyasında bayram edilməsinə qərar verməsi təkcə klassik irsə sevgi və hörmətin ifadəsi olmayıb, eyni zamanda milli-mənəvi dəyərlərin müasir cəmiyyət və həyatın qurulmasına cəlb edilməsi ilə bağlı idi. Eyni qayə ilə XX əsr ədəbiyyatı klassiklərindən Hüseyn Cavid, Cəlil Məmmədquluzadə, Süleyman Rüstəm, Səməd Vurğun, Əlağa Vahid, Rəsul Rza, İlyas Əfəndiyevin yubileylərinin təntənəli qeyd olunması, Bəxtiyar Vahabzadə, Qabil, Məmməd Araz, Yusif Səmədoğlu, Anar, Mirvarid Dilbazi, Maqsud İbrahimbəyov, Elçin və b. müasir yazıçı və şairlərin yubiley və yaradıcılıq tədbirlərinə yaxından qatılması Heydər Əliyevin Azərbaycançılıq proqramında ədəbiyyatın necə böyük bir yer tutduğunun real göstəricisidir.

Ulu öndər *1997-ci ilin oktyabr ayında yazıçıların X qurultayında iştirak edərək, Azərbahycan* Yazıçılar Birliyinin fəaliyyətini yüksək qiymətləndirmiş, təşkilatın milli müstəqillik və azərbaycançılıq platformasında yenidən qurulmasına dəstək vermişdir.

## Nəticə / *Conclusion*

Azərbaycan ədəbiyyatında müstəqillik və dövlətçilik uğrunda mübarizə ideyalarına qayıdış 1918-1920-ci illər cümhuriyyət dövründən sonra ən intensiv şəkildə bir daha 1980-ci illərin sonlarında oldu. Bir sıra ictimai-siyasi amillər – sovet quruluşunun maddi-mənəvi və ideoloji dayaqlarının sarsılması, yenidənqurma adlandırılan saxta yuxarıdan islahat cəhdlərinin boşa çıxması və dövlətin imperialist mahiyyətinin üzə çıxması bu prosesi daha da sürətləndirdi. Sovet dövlətinin qürubunda Azərbaycan xalqına qarşı törədilən beynəlxalq cinayətlər – erməni millətçilərinin Qarabağı qəsb etmək iddiası və Qarabağ müharibəsi, azərbaycanlıların Qərbi Azərbaycan torpaqlarından deportasiyası, 1990-cı il 20 yanvar faciəsi müstəqil Azərbaycan uğrunda mübarizəni zərurətə çevirdi. Zamanın güzgüsü olan ədəbiyyat hadisələrə cavab olaraq, müstəqillik ideyası və dəyərlərini təcəssüm və tərənnüm etdi. Əsrin əvvəllərinin türkçülük, azərbaycançılıq, müstəqillik məfkurəsini dirçəltdi, mühacirət irsini mənimsəyərək aktuallaşdırdı, tarixən bağlı olduğu ümumtürk kontekstini bərpa edərək müstəqillik savaşında bilavasitə iştirak etdi. 1980-ci illərin sonu, 1990-cı illərin əvvəllərində azərbaycançılıq məfkurəsinə söykənən müstəqillik savaşı çoxsaylı bədii əsərlərdə, geniş ədəbiyyat materiallarında təcəssümünü və özünütəsdiqini tapır.

## Ədəbiyyat / *References*


1. Abbas A. (2008). *Dolu.* Bakı: Təhsil.
2. Anar (2009). *Unudulmaz görüşlər.* Bakı: Təhsil.
3. Araz M. (2004). *Seçilmiş əsərləri (iki cilddə).* II cild. Bakı: Lider nəşriyyat.
4. Cavad Ə. (1991). *Sən ağlama, mən ağlaram.* Bakı: Yazıçı.
5. Cəfərov N. (2002). *Azərbaycanşünaslığa giriş.* Bakı: AzAtaM.

6. Əliyev H.Ə. (2023). *Müdriklik mücəssiməsi (Məruzələr, çıxışlar, görüşlər, müsahibələr).* Bakı: Elm.
7. *Xalq şairi Sabir Rüstəmxanlı: həyatı və yaradıcılığı* (2021). Bakı: Elm və təhsil.
8. Qabil (2004). *Seçilmiş əsərləri.* Bakı: Şərq-Qərb.
9. Məmməd T. (2020). *Milli kimlik və bədii mətn.* Bakı: Elm və təhsil.
10. *Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı* (2016), iki cilddə, I cild. Bakı: Elm və təhsil.
11. Rəsulzadə M.Ə. (1990). *Azərbaycan Cümhuriyyəti.* Bakı: Elm.
12. Rüstəmxanlı S. (2003). *Xətai yurdu.* Bakı: Qanun.
13. Ulutürk R.X. (2005). *Seçilmiş əsərləri (iki cilddə).* II cild. Bakı: Şərq-Qərb.
14. Vahabzadə B. (2004). *Seçilmiş əsərləri (iki cilddə).* I cild. Bakı: Öndər nəşriyyatı.
15. Altıntaş Ö. *İlk Türk Popüler Edebiyat Eserlerinde Çeviri Yoluyla Milli Kimlik İnşası* / Folklor/Edebiyat, № 27(3)-107, Lefkoşa: 2021, s. 839-855.
16. Öge H. *Ömer Seyfettin'in "Ashab-ı Kehfimiz" Hikâyesinde Millî Kimlik ve Öteki* / KARE Uluslararası Karşılaştırmalı Edebiyat Dergisi, № 11, Kayseri: 2021, s. 319-342